# ZƏNG

ÇİN
NAĞILLARI



AZƏRBAYCAN
UŞAQ VƏ GƏNCLƏR ƏDƏBİYYATI NƏŞRİYYATI
BAKI 1961

*Bu iki nağılda Çinin sadə adamlarının mərdlik və vətənpərvərliyindən danışılır. "Zəng" nağılı öz həyatını vətəninin səadəti uğrunda qurban verən Syao Lin adlı qıza həsr olunmuşdur, onun səsi indiyə kimi xalqın qəlbində səslənməkdədir. "Yüz min ox" nağılında isə Çin kəndlisinin imperator və onun məşvərətçilərindən qat-qat ağıllı olmasından, öz ölkəsini yadellilərdən necə xilas etməsindən danışılır.*



## ZƏNG

Siz Çinin paytaxtı gözəl Pekin şəhərində heç olmusunuzmu? Olmusunuz? Deməli, onda şəhərin kənarında nəhəng zəngi görmüsünüz, yəqin ki, onun gözəlliyi, parlaqlığı sizi heyran qoymuşdur.

Bu zəngi düzəldən ustanın adını qədim kitablarda və əlyazmalarında axtarmaq nahaqdır. Bu nəhəng zəngin, axar dağ çayı kimi aydın, incə səsinin birdən-birə qorxunc və əzəmətli olmasının səbəbini də həmin kitablardan öyrənmək mümkün deyildir.

Kitablarda bu barədə heç bir şey deyilmir. Ancaq qocalar bilirlər ki, bu qəribə zəngi kim və nə vaxt düzəltmiş və nə üçün onun səsi gah yavaş və incə, gah da bərk və qorxunc çıxır.

İndi qulaq asın!

Bir çox əsrlər bundan əvvəl Çin imperatoru əmr edir ki, təzə bir şəhər salsınlar. İmperator:

– Mən o şəhərin adını Pekin qoyacağam, – deyir, – qoy o, bütün yer üzündə ən böyük və gözəl bir şəhər olsun.

Ancaq iş hökmdarın dediyi kimi olmur. Xalq bu böyük Pekin şəhərini iki dəfə qurur, amma hər dəfə də düşmənlər onu dağıdırlar. Yadelli işğalçılar azğın çəyirtkələr kimi Çin torpağına basqın edirdilər. Onlar kişiləri aparıb özlərinə qul edir, şəhərləri isə yandırıb külə döndərirdilər.

Bunu görən imperator uzun illər boyu çox uzaqdakı dağlarda yaşayan müdrik bir abidin yanına yola düşdü. O, gəlib müdrik qocanın yaşadığı mağaraya çatdı, içəri girib itaətlə dedi:

– Sən həm qocasan, həm də ağıllısan. De görüm, mən nə edim ki, Çin dövlətinin paytaxtı Pekini qurum, onu qəddar düşmənlərdən qoruyum?

Qoca cavab verdi:

– Qoy Çinin ən yaxşı ustası sənin üçün elə bir zəng düzəltsin ki, böyüklükdə yer üzündə tayı olmasın. Bu zəngin səsi, sənin dövlətinin həm şimal, həm cənubunda, həm şərq, həm də qərbində olan sərhədlərinə qədər gedib çatmalıdır.

İmperator öz sarayına qayıtdı, üç dəfə əl çalıb əyanlarına əmr etdi:

– Gedin mənim ölkəmdəki ən bacarıqlı ustanı tapıb, yanıma gətirin.

Saray xidmətçiləri hərəsi bir tərəfə dağılışdılar, ayın axırına yaxın Çinin ən bacarıqlı ustasını tapıb, imperatorun hüzuruna gətirdilər.

Ustanın adı Çen idi. O, hökmdarın taxtı qarşısında diz çökəndə, imperator dedi:

– Sən mənim ölkəm üçün ən böyük bir zəng qayırmalısan. Qoy zəngin səsi ucsuz-bucaqsız ölkəmin sərhədlərinə çatsın.



Çen işə başladı. O, dincəlmək və rahatlıq bilmədən çalışırdı. Onun on beş yaşlı gözəl qızı Syao Lin atasına kömək edir, zəngin qayırılması üçün lazım olan ən sarı qızıl, ən ağ gümüş və ən qara dəmir axtarıb tapırdı.

Bu qiymətli metal, neçə gün, neçə gecə közərmiş sobada qaynadı. Elə ki, Çen, metalı töküb zəng qayırdı, hamı onun üstündə dərin bir çatlaq olduğunu gördü.

Çen yenidən işə başladı. Onun zəhmətkeş qızı yenə də gecə-gündüz atasına kömək edirdi.

Ancaq görünür, bu bədbəxtçilik qoca ustanın evini tərk etmək istəmirdi. Çen ikinci dəfə zəngi qayırdı. Bu dəfə zəngin üstündə iki çatlaq var idi.

Belə olduqda imperator qəzəblənib dedi: – Əgər üçüncü dəfə də işin düz gətirməsə, başını bədənindən üzəcəyəm!

Yazıq usta nə çarə etməli idi! O, yenidən işə başladı. Ancaq bu dəfə onun nə əlində əvvəlki qüvvə, nə də gözündə əvvəlki fərəh var idi. Məlum işdir, öz əməyindən fərəhlənməyən adam heç vaxt yaxşı şey yarada bilməz.

Gözəl Syao Lin kədərləndi, gecə hamı yuxuda ikən, gizlincə dağlara, abidin yanına qaçdı. Qız ağlaya-ağlaya atasının dərdini ağıllı qocaya danışdı, ondan kömək və məsləhət istədi.

Müdrik qoca bir an fikrə getdi, sonra dedi:

– Zəngin səsindən qələbə yaranmalıdır. Belə zəngi təkcə qızılın, gümüşün, dəmirin qatışığından tökmək olmaz. Bunlara bir də öz torpağı üçün canından keçməyə hazır olan adamın qanı qarışmalıdır.

Səhər, Syao Lin həmişə olduğu kimi atasına kömək edirdi. O, sobanın qabağında durub, əriyən metala baxır, kədərli düşüncələr onun ürəyini sıxırdı. Syao Lin atasının xəbərdar olmadığı bir şeyi bilirdi: o bilirdi ki, əgər heç kəs

özünü qurban verməsə, zəng yenə də zədəli çıxacaq. Deməli, yenə də Çinin düşmənləri onun oğul və qızlarını aparıb özünə qul edəcək, qocaları, uşaqları öldürəcək, şəhər və kəndləri yandıracaqlar.

Yox! Bu bir daha təkrar olmayacaqdır!

Qoca usta hələ nə olduğunu anlayana kimi onun gözəl qızı Syao Lin özünü qaynar metalın içinə atıb yox oldu. Qızın müqəddəs qanı ərimiş qızıl, gümüş və dəmirə qarışdı...

Bədbəxt Çen ağladı. Axı Syao Lin onun gözünün ağı-qarası bircə qızı idi. O, qızını dünyada hər şeydən artıq sevirdi.



– Axı sən nə üçün bunu elədin, nə üçün? – deyə ata yanıqlı-yanıqlı çığırır, gözünün yaşı iri damlalarla üzünün qırışları aşağı süzülürdü.

Elə ki, zəng hazır oldu, gördülər ki, bu, yer üzündə ən böyük zəngdir. Onun parıltılı üzündə nə bir çatlaq, nə də kələ-kötür yer var idi.

Hamı Çenin gözəl işinə heyran qalır, onun ustalığını tərifləyirdi.

Qədim adətə görə zəngi birinci dəfə qoca usta çaldı. Zəngin xoş səsi bütün ürəklərə dinclik və fərəh gətirdi.

Zəngin bu təsirli səsində Çen, bu torpaqda doğulmuş, onu özündən artıq sevmiş və yolunda həyatını qurban vermiş sevimli qızının səsini eşidirdi.

Günlər keçirdi. Gözəl Pekin şəhəri artıq salınmışdı. Bir dəfə sübh çağı hamı həyəcan səsi eşitdi. Bu, zəngin gurultusu idi. Ancaq heç kəs ona əl vurmamışdı, onun səsi Çinin şimal və cənub, qərb və şərq sərhədlərinə gedib çatırdı. Bu səsi eşidən adamlar ürəklənir, mərd və cəsarətli olurdular. Kişilər silaha əl atır, yeniyetmələr, cavanlar yaşlı kişilər kimi igidləşir, kişilər isə qocalar kimi ağıllı olurdular.

Düşmən həyəcan səsi altında Çinə soxularkən, bütün xalq ona qarşı çıxdı. Çinli döyüşçülər davada nə yorulmaq, nə də qorxu bilirdilər, çünki onlar zəngin qəzəbli, həyəcanlı səsini eşidirdilər. Onlar zəngin bu həyəcanlı səsində Syao Linin çağırış səsini eşidirdilər.

Yadellilər darmadağın edildi. Onların üstünü dalayıcı gicitkən kolları basdı, adları isə insanların xatirindən silindi.

Qoy, sizin heç biriniz elə bilməsin ki, bu, nağıldır. Yox! Belə olmuş və belə də olacaqdır: öz doğma yurdunun xoşbəxtliyi uğrunda həlak olanların səsi həmişə xalqın ürəyində səslənəcəkdir.



# YÜZ MİN OX

Bu nağılı mənim babama yüz yaşlı bir əsgər danışmışdı. Əsgər isə bu nağılı hələ uşaq olanda ulu babasından eşitmişdi. İndi özünüz hesablayın, görün, bu əhvalat nə vaxt olmuşdur.

Bu nağılda bir kəndlinin öz ölkəsini yadellilərdən necə xilas etməsindən danışılır.

Düşmənlər Çinə basqın elədilər. Onlar böyük Yantszı çayına yaxınlaşdılar, sahildə dayanıb çayın o biri tayına keçməyə hazırlaşırdılar. Bu vaxt Çin imperatoru təşvişə düşdü, tələsik öz qoşunlarını yığdı və Yantszı çayının o biri sahilinə gətirdi.

Gecə oldu. Çin imperatoru yadellilərin ordusuna bacarıqlı casuslar göndərdi. Səhərə yaxın onlar qayıdıb dedilər:

– Düşmənlərin hamısını saymağa vaxtımız çatmadı. Onların sayı zəmidəki düyü dənələrinin sayından çoxdur.

Onların sayı, qaranlıq yay gecəsində göydə görünən ulduzların sayından belə çoxdur. Hər bir yadellinin ox qabı ox ilə doludur.

İmperator qorxuya düşüb:

– Sizin gözləriniz daha nə gördü, qulaqlarınız daha nə eşitdi? – deyə soruşdu.

– Bir də onlar bir-birlərinə deyirdilər: «Dörd gündən sonra Yantszı çayını üzüb keçərik, çinlilərin hamısını qırarıq, imperatoru da çaya salıb boğarıq».

Çinlilərin hökmdarı bir az da artıq qorxdu. Onun məşvərətçiləri xeyli fikirləşdikdən sonra dedilər:

– Görünür ki, allahlar çinlilərin müvəffəqiyyətini istəmirlər! İndi ki düşmənlərin bu qədər oxları var, geri çəkilmək lazımdır.

Bu sözləri qoca bir kəndli eşidib hökmdarın çadırına yaxınlaşdı. Gözətçi soruşdu:

– Nə istəyirsən, ay səfil?

– İmperatora demək istəyirəm ki, o öz məşvərətçilərinin sözünə qulaq asmasın.

– Bəs imperator özünün ağıllı, alim məşvərətçilərinin sözünə qulaq asmayıb kimin sözünə qulaq assın?

Kəndli dedi:

– Mənim.

Gözətçi qışqırdı:

– Eh! Bu lap dəlidir ki! Başın salamat ikən rədd ol buradan!

İmperator səs-küyü eşidib çadırdan bayıra çıxdı, onun dalınca da məşvərətçiləri çıxdılar.

Kəndli fağır-fağır soruşdu:

– Ey böyük, müdrik hökmdar! Qoşunlarımızın döyüşsüz geri çəkiləcəkləri doğrudurmu?

İmperator cavab verdi:

– Doğrudur. Çin əsgərlərinin döyüşmək üçün oxları çatmır.

– Ey göylər oğlu, əmr elə, qoy ox qayırılsın. Məgər Çində bacarıqlı ustalar yoxdur?

İmperator hirslənib qışqırdı:

– Sən nə danışırsan, sallaqqulaq it! Heç kim, üç günə, yüz min ox qayıra bilməz.

– Onda, düşmənə ağılla, hiyləgərliklə və hünərlə qalib gəlmək lazımdır. Məgər Çində ağıllı, hiyləgər, hünərli əsgərlər yoxdur?

İmperator arxasını öz əyanlarına çevirib qəmgin-qəmgin dedi:

– Mənim ağıllı və hiyləgər məşvərətçilərim heç bir şey fikirləşib tapa bilmirlər.

Bu vaxt kəndli göyə, çaya, ağacların sahil mehindən yavaş-yavaş titrəyən budaqlarına baxıb dedi:

– Üç gündən sonra mən, ey hökmdar, sənin hüzuruna yüz min hazır ox gətirərəm.

İmperator bağırdı:

– Ay səni tısbağa yumurtası! Ancaq yadında saxla ki, əgər üç gündən sonra vəd etdiyin oxlar hazır olmasa, əmr edəcəyəm səni diri-diri yerə basdırsınlar.

Kəndli itaətlə dedi:

– Razıyam. Hələlik əmr edin ki, mənim ixtiyarıma iyirmi qayıq, əlli nəfər əsgər və yaxınlıqdakı küləşlərin hamısını versinlər.

Hökmdarın məşvərətçiləri gülüşdülər:

– Deyəsən, küləş oxlarınla bizi ağ günə çıxaracaqsan?!

Kəndli dedi:

– Mənim oxlarım düşmənin oxlarından nə pis, nə də yaxşı olacaq.

İmperator xeyli fikirləşdi, fikirləşdi, axırda razı oldu:

kəndliyə iyirmi qayıq, əlli əsgər və on beş araba yükü küləş verdilər. Kəndli əsgərlərə əmr etdi ki, qayıqları hündür və sıx qamışların arasında, düşmənlərin gözündən uzaq axmazda gizlətsinlər.

Bir gün keçdi. İmperator kəndlinin necə ox qayırdığını bilməyə tələsirdi, odur ki, kəndlinin yanına casuslar göndərdi. Onlar qayıdıb xəbər verdilər:

Kəndli bütün günü yeyib-içir, kef çəkir, onun əsgərlərinin heç biri də ox qayırmamışdır.

– Bu, dələduzun biridir. O məni aldatmağa cəsarət etmişdir!

Hökmdarın məşvərətçiləri ikiqat əyilib tez dedilər:

– Əlbəttə, yalançının lap böyüyüdür! Harada görünüb ki, sadə bir kəndli imperatorun və onun ən yaxşı məşvərətçilərinin ağlına gəlmədiyi bir şey fikirləşib tapa bilsin?

İkinci gün keçəndən sonra, casuslar təzə xəbər gətirdilər:

– Qoca kəndli bütün günü qamışlıqda balıq tutur, əsgərlər də avara-avara sahildə uzanıb qalmışlar.

İmperatorun səbri tükəndi, kəndlinin olduğu axmaza getdi.

– Oxları göstər görüm! – deyə o qəzəblə kəndlinin üstünə bağırdı.

– Ey göylər oğlu, mən oxları üç günə hazırlamağı vəd etmişəm, indi isə ancaq iki gün keçmişdir. Sabah yox, biri gün səhər yanıma gəlin, vəd etdiyimi alarsınız.

İmperator kəndliyə inanmadı. Axı, o, bir gündə yüz min oxu haradan ala biləcəkdi.

İmperator öz çadırına girməmiş, yaxınlıqda bir çala qazılmasını əmr etdi:

– Sabah yox, biri gün səhər, cəllad o yaramaz yalançını bu çalaya basdıracaqdır!



Bu vaxt axmazda daha işsiz oturan yox idi. Əsgərlər qayıqların dövrəsini qalın küləşlə örtürdülər. Avar çəkənlər üçün küləşdən kiçik komalar düzəldilmişdi.

Gecə olan kimi birdən-birə çayın aşağı tərəfindən qalın duman qalxdı. Elə ki, duman çayın üstünü örtdü, kəndli yola düşməyi əmr etdi. Əsgərlər küləş komalarda oturub avarları işə saldılar, qayıqlar yavaş-yavaş düşmən əsgərlərinin keflə məşğul olduqları sahilə doğru üzməyə başladı.

Çinlilər çayın ortasına çatmışdılar ki, birdən düşmən tərəfdən gözətçilərin səsini eşitdilər. Avarçılar dayandılar, bir balaca da olsa səs çıxarmağa qorxurdular. Birdən kəndli bərkdən güldü, hamıya əmr etdi ki, qışqırsınlar, təbili və sincləri döysünlər.

Qayıqlar düşmən tərəfə elə hay-küylə yaxınlaşdılar ki, elə bil çayla yüzlərlə barj gəlirdi.

Yadellilər qalın duman içində heç bir şey görə bilmirdilər. Onlar ancaq çoxlu çinlinin səsini eşidirdilər. Elə ki, qayıqlar sahilə yaxınlaşdılar, düşmənlər oxları onlara yağış kimi yağdırmağa başladılar. Oxlar arılar kimi vızıltı, vıyıltı ilə avar çəkənlərin küləş komalarına sancılırdı. Çinlilər daha da bərkdən bağırıb sinclərə vururdular. Elə ki düşmən olan sahilə çatmağa lap az qaldı, kəndli əmr etdi ki, qayıqların dalını düşmənlərə çevirsinlər, avar da çəkməsinlər.

Qayıqlar dayandılar, ancaq çinlilər elə səs-küy salmışdılar ki, hətta hərdən oxların vıyıltısı da eşidilmirdi. Ox o qədər idi ki, onların zərbələrindən qayıqların yanları titrəyirdi.

Bir neçə dəqiqə də keçdi, qayıqlara sancılan oxların sayı azaldı. Nəhayət onların vızıltısı da azaldı. Bu vaxt kəndli üzünü düşmənlərə tərəf tutub çığırdı:

– Çox sağ olun!

Çinlilər dərhal var qüvvələrilə öz sahillərinə tərəf avar çəkməyə başladılar. Səhər tezdən günəşin parlaq şüaları

gecənin dumanını dağıdarkən qayıqlar axmaza çatmışdılar. Sahildə olanlar axmazda iyirmi dənə nəhəng oxlu kirpinin üzdüyün görüb heyrətləndilər. Amma bunlar oxlu kirpi deyil, hər tərəfinə oxlar sancılmış qayıqlar idi. Qayıqların dal tərəfinə, burnuna, kənarlarına və küləş komalara minlərlə düşmən oxu sancılmışdı.

Hələ günəş gecə düşən şehi qurudar-qurutmaz, imperator və onun məşvərətçiləri axmaza gəldilər. Məşvərətçilərin ardınca hökmdarın cəlladı gəlirdi. Cəllad hökmdarın işarəsini gözləyirdi.

Hökmdar təxti-rəvandan düşüb gördü ki, kəndlinin əsgərləri yorulmadan, küləşə sancılmış oxları çıxarır, min-min sayıb bağlayırlar. Belə bağlamaların sayı yüzdən artıq olmasına baxmayaraq, qayıqlarda hələ də çoxlu ox qalmışdı.

İmperator hər şeyi başa düşdü, heyrət içində dedi:

– Sən haradan bilirdin ki, üçüncü gecə duman olacaq?

Kəndli buna belə cavab verdi: – Əgər əsgər göyün və yerin qanunlarını bilmir, öz doğma təbiətinin dilini başa düşmürsə, qoy öz yoxsul daxmasında oturub, uşaqlarına lələlik eləsin.

Bu zaman imperatorun alim məşvərətçilərindən biri irəli yeriyib qürurla dedi:

– Mən də bilirdim ki, bu gecə duman olacaq.

Kəndli gülüb dedi:

– Ancaq sizin biliyiniz heç kimə xeyir gətirməmişdir, deməli, o heç kimə lazım da deyil.

Elə o saat bütün oxlar Çin əsgərlərinə paylandı. Onlar çayı keçdilər, öz düşmənlərinə hücum etdilər. Yadellilərin heç min dənə də oxu qalmamışdı. Onlar qorxuya düşüb qaçmağa başladılar, ancaq cəsur Çin əsgərlərinin öldürücü oxlarından canlarını qurtaranlar çox az oldu.

## KİTABIN İÇİNDƏKİLƏR

Zəng ........................................................................ 3
Yüz min ox ................................................................ 9

Tərcümə edəni: **B. X. Qurbanova**

Redaktoru: **Yusif Məmmədov**
Bədii redaktoru: **F. Quliyev**
Texredaktoru: **B. Q. Quliyev**
Korrektoru: **Ş. Novruzova**

Çapa imzalanmış 8/IV-1961-ci il. Formatı 60x84.
Uçot-nəşr v. 0.9. Sifariş 156. Tirajı 17000. Qiyməti 4 qəp.
Uşaqgəncnəşr, Bakı, Fioletov küçəsi, 8.

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin «Qızıl Şərq» mətbəəsi.
Bakı, Həzi Aslanov küçəsi, 80.